Respublika fənn olimpiadaları ümumi təhsil müəssisələrinin 8-11-ci sinifləri arasında ayrı-ayrı fənlər üzrə xüsusi istedada malik şagirdlərin aşkarlanması, onların bilik və bacarıqlarının qiymətləndirilməsi, məktəblilərin həmin fənlərə olan maraqlarının artırılması məqsədilə hər il keçirilən, ölkənin bütün şəhər və rayonlarını əhatə edən elm yarışıdır.

Respublika fənn olimpiadaları 2 mərhələdə təşkil edilir. Respublika mərhələsi isə 2 turdan ibarətdir:

1. Rayon (şəhər) mərhələsi;

2. Respublika mərhələsi:
- Respublika mərhələsinin yarımfinal turu;
- Respublika mərhələsinin final turu.

Fənn olimpiadalarının rayon (şəhər) mərhələsi dekabr – yanvar aylarında, respublika mərhələsinin yarımfinal turu fevral – mart aylarında, respublika mərhələsinin final turu isə aprel – may aylarında Respublika Təşkilat Komitəsi tərəfindən müəyyən edilmiş mərkəzlərdə keçirilir.

Respublika fənn olimpiadaları Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla ümumilikdə 8 fənn üzrə təşkil edilir.